# Novruzun ilk çərşənbəsi– Su çərşənbəsi

*Yurdumuza əsrlərin sınağından çıxmış mənəvi dəyərləri, adət-ənənələri özündə yaşadan, bayramlarımızın şahı sayılan Novruz gəlir.*

*Ta qədimdən Novruz təbiətin canlanmasının, torpağın oyanmasının, ruhun təzələnməsinin simvolu hesab olunub. Xalqımız Novruz ərəfəsində çərşənbələrə daha böyük önəm verir.*

Rəvayətə görə, Tanrı ilk insanı - Adəmi yaradarkən torpağa su qatıb, palçıqdan insan düzəldib, sonra ona isti nəfəs verib, baharda çiçəkləri, otları, ağacları oyadan yellərə əmr edib ki, onu canlandırsın. İnsan da bu dörd ünsürdən yarandığı üçün tarix boyu onları müqəddəsləşdirərək, hərəsinə bir gün ayırıb. Beləcə, yazın - Novruzun müjdəçiləri olan Su, Od, Yel, Torpaq çərşənbələri yaranıb.

Bu il Azərbaycanda baharın müjdəçisi olan ilk çərşənbə - Su çərşənbəsi fevralın 21-də, Od çərşənbəsi fevralın 28-də, Yel çərşənbəsi martın 7-də, ilaxır olan Torpaq çərşənbəsi isə martın 14-də qeyd ediləcək.





Novruzun ilk çərşənbəsi - Su çərşənbəsidir. Su çərşənbəsi ilə bayrama hazırlıqlar başlayır. Deyirlər ki, Tanrı ilk olaraq suyu yaradıb. Buna görə su ilk çərşənbə kimi qeyd edilir. Su çərşənbəsində suyun müqəddəs mahiyyəti bir daha ifadə olunur. Bütün mifik mətnlərdə su həyat verən, dirildən, xoşbəxtlik gətirən müqəddəs bir inam obyekti kimi çıxış edir. Su çərşənbəsi boz ayın dörd müqəddəs çərşənbəsinin ilkidir. Xalq arasında o, “əvvəl çərşənbə”, “gözəl çərşənbə”, “sular Novruzu”, “gül çərşənbə” kimi də tanınır. Su çərşənbəsi suya tapınma inamı ilə bağlıdır. Qorxulu yuxuların suya danışılması ilə insanı izləyən qəzaların dəf olunması inamı türk mifoloji mətnlərinin əsasını təşkil edir.

Su üstündən atlanmaq, arzuların, diləklərini suya danışmaq, sübh tezdən evə bulaq suyu gətirmək və s. suya tapınma ilə bağlı olan ayinlərdir. İnanclara görə, sübh tezdən bulaqdan götürülən su min bir dərdin dərmanıdır. Su çərşənbəsi ilə bağlı su falları da mövcuddur.

Su həyat mənbəyi, aydınlıq rəmzidir.

Ömrünüz su qədər uzun və pak olsun!

***«Qəbələ».***

# “Qəbələ” lider oldu

Ötən həftə futbol üzrə Azərbaycan Premyer Liqasında XIX tura yekun vurulub. Turun son oyun günündə çempionatın liderləri olan “Qəbələ” ilə “Qarabağ” komandaları üz-üzə gəliblər.




Görüş həmyerlilərimizin qələbəsi ilə başa çatıb.

İlk hissədə Zenyov, ikinci hissədə Filip Ozobiç komandamıza qələbə gətirən qollara imza atıblar.

"Qəbələ" qazandığı 3 xal nəticəsində liderliyə yüksəlib.

***“Qəbələ”.***

**İlkin Vəlizadənindir.**

# Qəbələ Suvarma Sistemləri İdarəsi 2017-ci il üçün katirovka sorğusu ELAN EDİR

1. Tikinti materiallarının alınması.
2. «UAZ», «Niva», «Hundai IX-35», «QAZ-53», «QAZ-52», «Mersedes Benz «, «Kamaz 65115», «Kamaz betonqarışdıran», «İveso Traller» avtomaşınları üçün ehtiyyat hissələrin alınması:
3. T-150», «UMZ-65», «MTZ-80», markalı traktorlar üçün ehtiyyat hissələrin alınması:
4. «EO-2621», «Bereks», «JCB» markalı ekskavatorlar üçün ehtiyyat hissələrin alınması:
5. İnventar və avadanlıqların, tikinti materiallarının, təsərrüfat malları və dəftərxana ləvazimatlarının və sair malların alınması:

**Katirovkalar mart ayının 31-dək qəbul edilir.**
**Ünvan: Qəbələ rayonu, Əziz Əliyev küçəsi-12**
**Telefonlar:**
*(02420) 35-2-46, (02420) 35-4-41.*
**Tender komissiyası.**

# Qəbələ Rayon Mərkəzi Xəstəxanası 2017-ci ildə satınalmaları həyata keçirmək üçün aşağıdakı lotlar üzrə katirovka sorğusu ELAN EDİR

1. Əsaslı təmir;
2. Yumşaq inventar;
3. Cari təmir;
4. Dəftərxana ləvazimatı;
5. İnventar;
6. Mətbəə xərci;
7. İdarənin digər xərcləri:
8. Avadanlıq;
9. Əsas vəsait;

**Katirovka təklifləri 1 mart 2017-ci il tarixədək qəbul olunur.**
**Ünvan:** Abbas Səhhət küçəsi, №-12.
**Əlaqə telefonu:**
*(024) 20-5-13-46.*





qəzetinə

*2017-ci il üçün abunə yazılışı davam edir.*

İllik abunə qiyməti 30 manat, yarımillik 15 manatdır.

***Abunə qəzetin «Kapitalbank»ın Qəbələ filialındakı hesabına köçürmə və ya redaksiyada nəqd ödəmə yolu ilə aparılır.***

***Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.***

**Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).**

**Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 671-06-94.**


# ELANLAR

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 10 iyun 1998-ci il tarixli 11 saylı qərarı ilə Kiçik Pirəli kənd sakini **Abdullayev Sədulla Almirzə oğluna** verilmiş JN seriyalı 016 F nömrəli (kod 40602026) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasu tərəfindən 10 iyun 1998-ci il tarixli 11 saylı qərarla Böyük Pirəli kənd sakini **Abdullayev Firudin Qiyas oğlunun və ailə üzvlərinin** adına verilmiş JN seriyalı 244A nömrəli, JN seriyalı 244F nömrəli **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamələr** itdiyi üçün etibarsız sayılır.

---

Hacıalılı Bələdiyyəsinin 23 avqust 2005-ci-il tarixli 8 saylı qərarı ilə Hacıalılı kənd sakini **İbrahimov Pərviz Xalid oğluna** verilmiş **torpaqların alqı-satqısına dair akt** (qeydiyyatı: 3 sentyabr № 120) və həmin bələdiyyənin vətəndaşa torpaq satılmasına dair 23 avqust 2005-ci il tarixli 8 saylı **qərarı** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 5 fevral 1999-cu il tarixli 3 saylı qərarı ilə Nic qəsəbə (əvvəlki kənd) sakini **Vəliyev Famil Yunis oğluna** verilmiş JN seriyalı 341 F nömrəli (kod 40600068) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 9 saylı Ərazi İdarəsi tərəfindən 10 fevral 2015-ci il tarixdə Qəbələ şəhər sakini **Xankişiyeva Aida Səlim qızına** verilmiş 1915000905 qeydiyyat saylı RX seriyalı 0591988 nömrəli **Dövlət reyestrindən çıxarış** və 10 fevral 2015-ci il tarixli AA seriyalı 008101 nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyi üçün etibarsız sayılır.

# ALLAH RƏHMƏT ELƏSİN

Mehrəli Mehrəliyev, Eldar Quliyev, Emin Baratoğlu və Əlövsət Aləmmədov ailələri ilə birlikdə Təbriz Yaqubov adına Bum qəsəbə tam orta məktəbin müəllimləri **Kifayət Rəşidovaya** və **Mehparə Əzəmmədovaya** əzizləri

**FƏXRƏDDİN ƏZƏMMƏDOVUN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası FNH-nin Şimal-qərb Regional Mərkəzinin kollektivi Mərkəzin rəis müavini **Asif Məmmədliyə** anası

**RAİSA XANIMIN**

vəfatı ilə əlaqədar kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Təbriz Yaqubov adına Bum qəsəbə tam orta məktəbin pedaqoji kollektivi iş yoldaşları **Kifayət Rəşidovaya** və **Mehparə Əzəmmədovaya** əzizləri

**FƏXRƏDDİN ƏZƏMMƏDOVUN**

vaxtsız vəfatı ilə əlaqədar başsağlığı verir və onların kədərinə şərik olur.

---

Vəndam Bələdiyyə şurasının üzvləri bələdiyyənin sədri **Asif Həşimova** yaxın qohumu

**DAMƏT HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Təbriz Yaqubov adına Bum qəsəbə tam orta məktəbin müəllimi Hüru İbrahimova ailəsi ilə birlikdə iş yoldaşları **Kifayət Rəşidovaya** və **Mehparə Əzəmmədovaya** əzizləri

**FƏXRƏDDİN ƏZƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

«Qəbələ» qəzetinin kollektivi sabiq iş yoldaşları **Aslan Cəlilova** qardaşı

**CALLAT CƏLİLOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Təbriz Yaqubov adına Bum qəsəbə tam orta məktəbin pedaqoji kollektivi məktəbin direktoru **Məlahət Dadaşovaya,** qardaşları **Oqtay** və **Mübarizə** əzizləri

**RASİMİN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verir.

---

Mehrəli Mehrəliyev, Emin Baratoğlu, Rasim Yaqubov və Ölövsət Aləmmədov, **Ağa Həşimova, Şahmurad Ağasıyevə** və **Eldar Quliyevə** əzizləri

**SABİR HƏŞİMOVUN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir, kədərlərinə şərik olurlar.


*Redaktor*
*Varis Yaqubov*

*TƏSİSÇİLƏR:*
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*
*Növbətçi redaktor*
*Qüdrət Səmədov.*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.